*17 Noyabr Milli Dirçəliş Günüdür*

# Meydan hərəkatı ilə başlanan azadlıq mücadiləsi

**Noyabrın 17-si xalqımızın azadlıq hərəkatının başlandığı, hazırkı dövlət müstəqilliyimizin təməl daşlarının qoyulduğu şanlı gün kimi tarixə düşüb. Otuz dörd ildir ki, bu günü qeyd edirik. Vətən müharibəsindəki möhtəşəm Qələbə ilə daha da urvatlanan milli dirçəlişimizin ad gününü qalib xalq kimi artıq ikinci ildir ki, keçiririk.**



...Hər gün Azadlıq meydanına mitinqə toplaşırdıq. O zaman yetmiş il ürəklərimizdə yaşatdığımız üçrəngli, Ay-ulduzlu bayrağımız hələ üzə çıxmamışdı. Türkçülük, müasirlik və islamiyyət rəmzini başı üzərində gəzdirmək istəyən xalqın gözü yolda idi. Nəhayət, el anası Gültəkin Həsənova ipəyə, qumaşa əlinin zəhmətini, gözünün nurunu, qəlbinin sevgisini qataraq belə bir bayraq tikdi və ilk dəfə olaraq Azadlıq meydanına gətirdi. İzdihamın sevincdən necə hayqırdığı indi də olduğu kimi yadımızdadır. Bayrağımızın yenidən tarix səhnəsinə çıxdığı unudulmaz gün idi noyabrın 17-si.

Gözdən düşmüş Leninin iri heykəli olan yerdə, uca nöqtədə bəxtəvərcəsinə dalğalanan o ərməğan bayrağın kölgəsi, təbii ki, hamıya bəs etmirdi. İmperiya qorxusunun yenildiyi həmin mübarək gündən sonra meydanlara gətirilən bayraqların sayı artmağa başladı. Yazıları ilə ürəklərdən tikan çıxaran gündəlik reportajları ilə xalqı ruhlandıran "Kommunist" (indiki "Xalq qəzeti" də, "Gənclik" jurnalı da, Sabir Rüstəmxanlının "Ömür kitabı"da minlərlə mitinq iştirakçısının əlindən düşmürdü. "Meydan hərəkatı"nı süsləyən tutya nəşrlər gözlərə işıq, duyğu və düşüncələrə aydınlıq verir, tribunadan səslənən azadlıq harayına rəng qatırdı. Hər çıxışda izdihamın havaya qalxan yumruqları meydanı dalğalı dəniz kimi qabardırdı.

Xalq haqq-ədalət istəyirdi. Ermənistandan, öz ata-baba yurdundan qovulan 200 mindən çox azərbaycanlının haqqını tələb edirdi. Dağlıq Qarabağ bölgəsində separatçıların azğınlığına, Xankəndi (o vaxtkı Stepanakert) şəhərində törədilən iğtişaşlara etirazını bildirirdi. Həmin günlərdə "Xalq qəzeti"ndə dərc olunmuş "Topxananın harayı"na səs verirdi. Moskvanın bütün bunlara qarşı təsirli tədbir görməməməsindən narazılığını ifadə edirdi. Beləliklə, Bakı keçmiş Sovet İttifaqının ucsuz-bucaqsız ərazisində ən genişmiqyaslı aksiyalar şəhəri kimi tanındı.

Kütləvi mitinqlərin bütün respublikanı bürüyəcəyindən, etiraz dalğalarının imperiyanın sütunlarını laxladacağından, "millətlər həbsxanası"nın divarlarını sarsıdacağından və digər respublikalara yayılacağından qorxuya düşən mərkəzi hakimiyyət orqanları noyabrın 24-dən 25-nə keçən gecə Bakıya qoşun yeritdilər. Amma xalq geri çəkilmədi. Daha da mütəşəkkilləşən meydan hərəkatı tezliklə Azərbaycanın müstəqilliyinə çağıran şüarlarla qətiləşdi. Yalnız dekabrın 4-də ordunun gücü və antisanitariya bəhanəsi ilə meydan boşaldılsa da, hərəkatın tarixi tale yaddaşımızda oynadığı rolu yaddaşlardan, məfkurələrdən, gələcəklə bağlı işıqlı amallardan silib təmizləmək mümkün olmadı.

1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlanan-da SSRİ rəhbərliyi, şəxsən baş katib Mixail Qorbaçov buna loyal yanaşdı. Ayağı yer alan ermənilərsə öz hökumətlərinin və xaricdəki ideoloqlarının tapşırığı ilə Ermənistandakı azərbaycanlıları oradan planlı şəkildə, kütləvi surətdə qovdular. Bu zaman onlar soydaşlarımızı öldürməkdən, hətta diri-diri yandırmaqdan da çəkinmədilər. Qarabağda, Sumqayıtda baş verən sonrakı cinayət hadisələri də həmin "zəncir"in halqaları idi. Moskva isə bu terror hadisələrini sanki bilərəkdən gözardına verir, gərəkən reaksiyanı göstərmirdi. Bu səbəbdən daha da azğınlaşan hay törəmələri Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında məsələ qaldırdılar.

Xalqımızı aşkar haqsızlığa qarşı ayağa qaldıran da elə bu amillər oldu. İlk vaxtlar hələ Moskvaya, yerli hakimiyyət rəhbərlərinə müəyyən inam vardı. Bu, əllərdəki portretlərdən, sovet bayraqlarından, səslənən şüarların məzmunundan da görünürdü. Amma xalq nə Moskvanın, nə də Azərbaycanın o vaxtkı rəhbərliyinin heç bir qəti tədbir görmək istəmədiyini anlayınca, respublikanın hər yerindən insanlar axın-axın Bakıya gəlməyə başladılar. Azadlıq meydanı aşıb-daşdı. Xalq anti-Azərbaycan siyasətinə öz etirazını fasiləsiz mitinqlər vasitəsilə bildirirməkdə israrlı idi. Beləliklə də Vətənimizin istiqlaliyyətə doğru yolu açıldı. Heç məşum 20 Yanvar hadisələri də millətin gözünü qıra, onu azadlıq mücadiləsindən döndərə bilmədi.

Bəli, çağdaş tariximizin əsas mərhələlərindən birini təşkil edən 17 Noyabr – Milli Dirçəliş Günü Azərbaycanın müstəqilliyinin bərpa edilməsində danılmaz rol oynayıb. Əslində, bu tarix mənəvi əsaslarını ötən əsrin 60-cı illərindən götürüb. Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəlişi ilə xalqa sağlam ruh və özünüdərk əzmi aşılayıb. Sonralar ulu öndərin siyasi uzaqgörənliyi və müdrikliyi ilə dönməz xarakter alıb və suveren, müstəqil Azərbaycan hazırkı inkişaf yoluna qədəm qoyub. 1988-ci ildə xalq hərəkatının pərvəriş tapdığı vaxtda Azərbaycana rəhbərlik edən siyasi qüvvələrsə nə qaçılmaz reallıqları qiymətləndirə bilirdilər, nə də sonrakı ağrılı proseslərdə xalq naminə cəsarətli bir addım atıblar.

Azadlıq ideyası yalnız 1990-cı ildə ümummilli lider Heydər Əliyev Moskvadan qayıtdıqdan sonra real müstəviyə keçməyə başladı. Həmin ilin noyabrında onun sədrliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi və orada dövlət rəmzləri haqqında məsələ müzakirə olundu. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. AXC-nin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı.

Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun etibarlı bünövrəsi qoyuldu. Sonra Azərbaycanın dövlət müstəqilliyi elan olundu. Hazırda ölkəmiz Cənubi Qafqazın lider dövlətidir. Burada heç bir böyük beynəlxalq layihə bizim iştirakımız olmadan gerçəkləşmir. Çağdaş tariximizin ən böyük tarixi uğuru isə 2020-ci ildə 44 günlük Vətən müharibəsində ölkəmizin möhtəşəm Qələbəsi sayılır. Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımız işğaldan azad edildi, BMT Təhlükəsizlik Şurasının qətnamələri, nəhayət, yerinə yetirildi, haqq-ədalət bərpa olundu.

Sonsuz qürur duyuruq ki, bir zaman ehtiyatla Azadlıq meydanına gətirilən üçrəngli Azərbaycan bayrağı artıq BMT-nin iqamətgahı qarşısında, digər mötəbər ünvanlarda, eləcə də azad edilmiş bütün torpaqlarımızda əzəmətlə dalğalanır.

**Əli NƏCƏFXANLI, "Xalq qəzeti"**